Ədəbiyyat qəzeti

# Zəhmət ucalıqdır

5 dekabr / 2020

*Mənim nəzərimdə dünyada iki ucalıq var. Bir Qadir Allahın ucalığıdır ki, ona heç kimin əli yetmir. Biri də elmin daşlı-kəsəkli yollarının, çətin və qarışıq aşırımlarının, səbrlə, dözümlə keçərək, bu yolun sərt, keçilməz yoxuşlarına da elm dolu sanballı xurcunun dəyanətli güclü çiyinlərində daşımaqla əzmlə, təpərlə qalxıb ucalıqlarda zirvələşən alimlərdir. Bele alimlərimizdən biri də əzizimiz Kamaldır.*

*Mən hörmətli akademikimizi, dəyərli ziyalımızı, istedadlı yazıçımızı, təəssübkeş mədəniyyət xadimimizi xeyli müddətdir ki, tanıyıram. Belə ki, 1990-ci ildə, Sovetlər Birliyi dağıldığı vaxtlardan, Azərbaycan Mədəniyyət Fondu yaradılanda hörmətli Kamal müəllim həmin Fondun rəhbəri təyin edilmişdi. Azərbaycanda yaşayan digər azsaylı xalqlar kimi kürdlərin də Mədəniyyət Mərkəzi təsis edildi və mən də həmin mərkəzə sədr seçildim. O vaxtdan Kamal müəllimin rəhbərliyi ilə digər azsaylı xalqların Mədəniyyət Mərkəzləri fəaliyyətə başladı. Az müddət ərzində mən Kamal müəllimin son dərəcə alicənablığının, qayğıkeşliyinin, tabeçiliyində olan işçilərə həssas münasibətinin, təşkilatçılıq qabiliyyətinin  və elmin yüksək zirvələrinin fəth eden alimliyinin şahidi oldum.*

*Sadaladıqlarıma nümunə kimi əvəsiz və vətənpərvər akademikimizin özünün dahiyanəliklə ifadə etdiyi bir deyimi dilə gətirmək istəyirəm. "MƏNİM XALQIM"- kim ki, bu ifadəni işlədəndə öz ürəyindən vurğunu nitq hissəsi kimi xalq sözünün üzərinə qoyursa, xalqın bayrağı al boyanır, kim ki, şəxs əvəzliyi kimi vurğunu mənim sözünün üzərinə qoyursa xalqın bayrağı qara boyanır.*

*Bu iki sözlə xalqının həddindən artıq sevən, ona bütün varlığı ilə bağlı olan bu müdrik insan hay-haya salır ki, ey mənim xalqımın övladları xalq yolunda heç vaxt düşmənin şirin dilinə fəndfelinə, var dövlətinə uyaraq doğma vətənimizə, müqəddəs torpağimiza əsla xor baxmayın.*

*Kamal müəllimin ədəbi yaradıcılığı xüsusilə diqqətə layiqdir. Onun romanlari, hekayələri, dramaturji fəaliyyəti bunu bir daha sübut edir. Onun ədəbiyyat sahəsindəki ən böyük uğurlarını mən onun nəsri ilə bağlayram, romançılıq sahəsində gördüyü işlərlə səciyyələndirirəm. 2004-cü ildə yazmış olduğu "Yarımçıq əlyazma" romanı ilə ədəbi aləmi silkələdi. Həmin roman sərhədləri aşaraq bir çox dünya dillərinə tərcümə olundu və Azərbaycan ədəbiyatının bu gününün faktı kimi öz təstiqini tapdi.*

*Mənim üçün Kamal müəllim çox böyük kamil və bacarıqlı insandır. Azərbyacan ədəbiyyatının, Azərbaycan  mədəniyyətinin, Azərbaycan ictimai-siyasi fikrinin ən dəyərli şəxsiyyətlərindən, ən bacarıqlı nümayəndələrindən biri kimi Kamal müəllim, həm də yüksək vəzifərlərdə çalışmış və çalışmaqdadır.*

*Kamal müəllim ideyalarla  dolu, ideyalar yaradan və gözəl ideyaları gerçəkləşdirən bir alimdir, bir ziyalıdir, rəhbərdir. Onun dövlətçilik sahəsində xidmətləri də təqdirə layiqdir. Bakı Beynəlxalq Multikulturlirə Mərkəzinin yaradılmasi haqqinda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərman ilə yaradılan multikulturalizm sahəsində də Kamal müəllimin geniş fəaliyyəti, onun vətənimizə, xalqımıza canidildən xidmət etməsi xalqlar və dinlər arasında ayrıseçkiliyə yol verilməməsi sahəsində dövlətimizin siyasətinin uğurla həyata keçirilməsi üçün gördüyü işlər də təqdirəlayqdir. Bunun əyani nümunəsi kimi deyə bilərəm ki, mən mənzilimin olmaması ilə əlaqədar Möhtərəm Prezidentimizə müraciət etmişdim. 80 illiyimi, ədəbi ictimai-siyasi fəaliyyətimi nəzərə alan qayğıkeş Kamal müəllimin bu məsələni Cənab Prezidentə təqdim etməsi naticəsində mən mənzillə təmin olundum.*

*Hörmətli akademik, sizin haqqınızda layiq olduğunuz ən xoş sözləri, ən geniş fikirləri yazmaq olar. Ancaq sizin təvazökarlığinizi nəzərə alaraq, fikir və düşüncələrimi yığcamlaşdirdim. Sizi 70 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, Sizə cansağlığı, yenə də cansağlığı və yaradıcılıq uğurları arzuluyuram. Və onu da arzuluyuram ki, inşallah, 80 illik yubleyinizi, mədəniyyət paytaxtimiz olan və işğaldan azad edilməsinin 10 illiyi qeyd ediləcək Şuşada keçirəsiniz. İsa bulağından bir dolça su içib mən qoca qədirbilənin də əvəzindən deyəsiz:*

*Şuşa bizimdir!*
*Qarabağ Azərbaycandır!*

*Dərin hörmətlə,* ***Əhməde HƏPO**,*
*Azərbaycan Yazıçılar Birliyin üzvü,*
*Azərbayacan kürd icmasının ağsaqqalı*